**Azərbaycan Respulikasının Prezidenti**
**İLHAM ƏLİYEV cənablarına**

Çox hörmətli cənab Prezident!

Ölkəmizdə uşaqlar və yeniyetmələrin cəmiyyətimizin hərtərəfli inkişaf etmiş vətəndaşları kimi formalaşması üçün müəyyən işlər görülmüş, uşaq problemlərinin ardıcıl həlli dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. 2009-cu ilin tərəfinizdən "Uşaq ili" elan edilməsi ölkəmizdə bu sahədə həyata keçirilən fəaliyyəti daha da intensivləşdirmiş, bu prosesə vətəndaş cəmiyyətinin bütün qurumlarının səfərbər olmasına gətirmişdir.

Bununla belə bu gün uşaqlar və yeniyetmələrin mədəni-mənəvi tərbiyəsi sahəsində müəyyən problemlər qalmaqdadır. Bu problemlərin bir qismi gənc nəslin dünyagörüşünə, əxlaqi normalara və saf təfəkkürə malik olan cəmiyyət üzvü kimi formalaşması üçün mühüm olan incəsənət və ədəbiyyat nümunələrinin yaradılmasının bazar iqtisadiyyatı şəraitində gəlir gətirməyən sahə olması ilə bağlıdır.

Uşaqlar üçün ədəbiyyat və incəsənət əsərlərinin yazılmasına yaradıcı insanların marağının azalması, yaradılmış əsərlərin zəif təbliği, nəşr məhsulunun qıtlığı və s. nəticəsində yaranan boşluğun böyüklər üçün nəzərdə tutulmuş və uşaq psixologiyasına uyğun olmayan əsərlər ilə doldurulmasına şərait yaradır.

Bu sahədə ayrıca telekanalın olmaması isə böyüyən nəsl üçün ən əlçatan məlumatlandırma və mədəni tərbiyələndirmə mənbəyi olan televiziyanın imkanlarından istifadənin məhdud olması deməkdir. Mövcud tele və radiokanallar proqramlarının tərtibatında ilk növbədə maddi səmərəliliyi düşünmək zorunda olduqlarına görə əsl incəsənəti mənaca yüngül və bəzən tam mənasız şou məhsulları ilə əvəz etmək məcburiyyətində qalırlar. Uşaqlar üçün ayrılan efir vaxtının azlığı, ayrılan vaxtın isə əsasən əcnəbi cizgi filmlərinin nümayiş etdirilməsi problemin həllini daha da çətinləşdirir.

Eyni zamanda İnternetin geniş imkanlarından da istifadə məhduddur: uşaqların inkişafı üçün tələb olunan, onların yaşlarına uyğun müxtəlif səpkili Azərbaycan dilli İnternet səhifələrini barmaqla saymaq olar.

Teatr, muzey və digər sənət ocaqlarının uşaqlar üçün xüsusi proqramlarının azlığı, onların hazırlanması və həyata keçirilməsi isə formal yanaşma ilə seçilir. Peşəkar və özfəaliyyət dərnəklərinin sayının və mövcud uşaq kollektivlərinin çıxış etməsi üçün meydançaların məhdud olması və s. uşaqların mədəni inkişafına əngəllər yaradır.

Məktəblərdə incəsənət növlərinin tədrisinin təşkilində olan problemlər uşaq və valideynləri incəsənətin tədris fənni kimi lazımsız olması nəticəsinə gəlməyə əsas verir.

Yuxarıda göstərilənlər və digər bu kimi məsələlər 2011-ci ilin 11 fevrall tarixində "ELS-Müstəqil Araşdırmalar Mərkəzi" İctimai Birliyinin rəsmi qurumlar və ictimai təşkilatların təmsilçilərinin, tanınmış incəsənət xadimlərinin iştirakı ilə keçirdiyi Dəyirmi Masada müzakirə olunmuşdur.

**Tədbir iştirakçıları bu gün uşaqların mədəni-mənəvi tərbiyələndirilməsinə dövlət qayğısının gücləndirilməsinə ehtiyacın olduğunu qeyd edərək, aşağıda göstərilən təkliflərlə Sizə müraciət etməyə qərar vermişlər:**

1. Uşaqların və yeniyetmələrin mədəni və mənəvi tərbiyələndirilməsinə yönəldilmiş **“Uşaq Siyasətinə dair Milli Strategiya”**nın işlənilməsi və geniş ictimai müzakirəsi. Bu məqsədlə müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyətinin təmsilçilərni cəlb etməklə **Koordinasiya Şurası və ya İşçi Qrupun** yaradılması məqsədəuyğun olardı;
2. Bütün ölkə ərazisinə yayımlanan dövlət **uşaq televiziya kanalının** açılması.

Çox hörmətli cənab Prezident!

Azərbaycan vətəndaş cəmiyyətinin bir qrup təmsilçisi olaraq ölkəmizin gələcəyi olan uşaqların yüksək mənəvi dəyərlərə sahib olmaları, mədəni mühitdə böyümələri, cəmiyyətimizin kamil və layiqli üzvləri kimi yetkinləşməsi prosesinə dəstək məqsədi ilə irəli sürdüyümüz təkliflərə dəstək verməyinizi Sizdən xahiş edir və onların həyata keçirilməsində iştirak etməyə hazır olduğumuzu bildiririk.

Dəyirmi Masanın təşkilatçısı və aparıcısı,
“ELS-Müstəqil Araşdırmalar Mərkəzi” İctimai Birliyinin sədri,
texniki elmlər üzrə fəlsəfə doktoru **İradə Yaqubova**

**Fərhad Bədəlbəyli**
Baki Musiqi Akademiyasının rektoru, xalq artisti, professor

**Nazim Kazımov**
Baki Musiqi Kollecinin direktoru, əməkdar incəsənət xadimi, professor

**Çingiz Abdullayev**
Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq yazıçısı

**Oqtay Zülfüqarov**
xalq artisti, bəstəkar

**Oqtay Rəcəbov**
Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, professor, bəstəkar

**Minarə Dadaşova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
kafedra müdiri, professor, pedaqoji elmlər doktoru

**Jalə Qədimova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
kafedra müdiri, professor, pedaqoji elmlər doktoru

**Baba Vəziroğlu**
əməkdar incəsənət xadimi, şair

**Faiq Sücəddinov**
xalq artisti, bəstəkar

**Vahid Əziz**
Şair

**İnarə Zülfüqarova**
Azərbaycan Dövlət Uşaq Filarmoniyasının müəllimi

**Əminə Musayeva**
"Təbəssüm" Uşaq Studiyasının rəhbəri

**Larisa Tarusova**,
"Günay" Uşaq Teatrının direktoru

**Abdulla Abdulla-zadə**
"AR Ekologiya İnnovasiyalar Mərkəzi" İctimai Birliyinin sədri, professor

**Sevil İsayeva**
"Ekoleks" Ekoloji Hüquq Mərkəzi İctimai Birliyinin sədri

**Nəriman Ağayev**
"Davamlı İnkişaf Araşdırmalar Mərkəzi" İctimai Birliyinin sədri

**Samir İsayev**
"Hüquqi Düşüncə Mərkəzi" İctimai Birliyinin sədri

**Qəmzə Yusubova**
"Ekoloji Maarifçilik və Monitorinq" İctimai Birliyinin sədri

**Fikrəd Cəfərov**
"Davamlı İnkişaf Uğrunda" İctimai Birliyinin sədri